## Azərbaycan Respublikasında *kənd təsərrüfatı bitkilərinin* toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

*Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin istehsalının dinamik inkişafına nail olmaq məqsədilə toxumçuluq sahəsinə dövlət dəstəyi daha da genişləndirilmiş və kənd təsərrüfatı bitkilərinin istehsalının artırılmasına əsaslı zəmin yaradılmışdır.*

*Respublikada toxumçuluqla məşğul olan elmi müəssisə və təşkilatların fəaliyyətlərini tənzimləmək, onların maddi-texniki bazalarını möhkəmləndirmək, istehsalçıların toxuma olan tələbatlarını ödəmək və ölkədə kənd təsərrüfatı bitkilərinin istehsalının inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti* ***qərara alır:***[2]

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın ki:

1.1. Nazirliyin Aqrar Elm Mərkəzinin təsərrüfatlarının və dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin torpaqlarını Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ilə birlikdə inventarlaşdıraraq, onlardan istifadə olunması vəziyyəti barədə təkliflərini 2 ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Nazirliyin Aqrar Elm Mərkəzinin təsərrüfatlarında və dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində kollektor-drenaj şəbəkələrinin və suvarma sistemlərinin vəziyyətini Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə araşdırıb, onların bərpası barədə 2 ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflərini versin;

*1.3. "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinin dördüncü hissəsinin icrası məqsədilə hər il 15 iyun tarixinədək növbəti il üçün orijinal, superelit və elit toxumların istehsalı kvotalarının təsdiq edilməsi barədə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təklif versin;*[3]

1.4. hər növbəti il üçün *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları* üçün kənd təsərrüfatı maşın və mexanizmləri, gübrə, pestisidlər və avadanlıqların tələbatını müəyyən etsin.[4]

2. "*Aqroservis*" Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın ki, ilk növbədə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin *toxum istehsal edən elmi müəssisə və təşkilatlarının, özəl toxumçuluq təsərrüfatlarının* yerləşdiyi ərazilərdə tələbata əsasən *aqrotexniki xidmətlərin* genişləndirilməsini təmin etsin.[5]

3. Müəyyən edilsin ki:

3.1. *aqrotexniki xidmətlərin* qiymətləri "*Aqroservis*" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırmaqla təsdiq edilir;[6]

3.2. *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları*, özəl toxumçuluq təsərrüfatları *aqrotexniki xidmətlərin* dəyərini məhsul yığımı başa çatdıqdan sonra ödəyirlər;[7]

3.3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin *toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında* istehsal edilmiş orijinal, superelit və elit toxumların istehsalına çəkilən xərclər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi arasında əldə edilmiş razılaşmaya əsasən, mərhələlər üzrə ayrı-ayrı aqrotexniki tədbirlər başa çatdıqda *dövlət büdcəsinin vəsaiti hesabına* ödənilir.[8]

*3.4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında istehsal edilən elit toxumlar istehsal xərclərinin 70 faizindən yuxarı olmayan qiymətə toxumçuluq təsərrüfatlarına satılır və əldə edilən vəsait həmin elmi müəssisə və təşkilatların işçilərinin sosial müdafiəsinin və maddi-texniki bazasının gücləndirilməsinə yönəldilir.*[9]

3.5. dövlət və özəl toxumçuluq təsərrüfatlarında elit və 1-ci reproduksiyalı toxumların səpininə və istehsalına müəllif nəzarəti *Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi* tərəfindən həyata keçirilir.[10]

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzinin mərkəzi aparatı işçilərinin vəzifə maaşları barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmış təklifi 1 ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təqdim etdiyi layihə-smeta sənədlərinə və ya texniki iqtisadi əsaslandırmaya əsasən *Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyində və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatlarında* inzibati binaların, laboratoriyaların, maşın-traktor parklarının və anbarların tikintisini, təmir və yenidən qurulmasını, tələb olunan avadanlıqların, cihazların və texnikanın alınmasını dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulmuş vəsaitin (investisiya

proqramı) hesabına ayrılmasını nəzərə alsınlar.[11]
6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 19 iyun 2008-ci il
№ 139

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 20 fevral 2014-cü il, № 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, №02, maddə 201**)
2. 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 22 fevral 2015-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №2, maddə 227**)
3. 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955**)
4. 25 dekabr 2019-cu il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 27 dekabr 2019-cu il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, № 12, maddə 2077)**
5. 30 dekabr 2019-cu il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №12, maddə 2098)**
6. 7 dekabr 2020-ci il tarixli **485** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 9 dekabr 2020-ci il, № 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, V kitab, maddə 1589)**
7. 7 may 2021-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 9 may 2021-ci il, № 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 5, maddə 512)**
8. 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, “Xalq” qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, “Xalq” qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557)** ilə adında “**buğda**” sözü “**kənd təsərrüfatı bitkilərinin**” sözləri ilə əvəz edilmişdir.

[2] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, “Xalq” qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557)** ilə preambula yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm yer tutan buğda istehsalının dinamik inkişafına nail olmaq məqsədi ilə son illər onun toxumçuluğu sahəsinə dövlət dəstəyi daha da genişləndirilmiş və buğda istehsalının artmasına əsaslı zəmin yaradılmışdır.~~

~~Bununla yanaşı, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Aqrar Elm Mərkəzinin təsərrüfatlarının və dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin maddi-texniki bazasının zəif olması və əsas vəsaitlərinin sıradan çıxması ilə əlaqədar olaraq ölkənin buğda toxumuna olan tələbatı tam ödənilmir.~~

~~Mütəxəssislərin apardığı hesablamalara əsasən 2011-ci ildə respublikanın buğdaya olan tələbatını ödəmək məqsədi ilə 2009-cu ildə 620,0 min hektar və 2010-cu ildə 650,0 min hektar sahədə yüksək reproduksiyalı toxumlarla əkin aparılmalıdır.~~

~~Respublikada toxumçuluqla məşğul olan dövlət qurumlarının fəaliyyətini tənzimləmək, onların maddi-texniki bazasını möhkəmləndirmək, istehsalçıların toxuma olan tələbatını ödəmək və ölkədə buğda istehsalının dinamik inkişafını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**~~

[3] 7 dekabr 2020-ci il tarixli **485** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 9 dekabr 2020-ci il, № 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, V kitab, maddə 1589)** ilə 1.3-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.3. “Toxumçuluq haqqında” Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinin dördüncü hissəsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş “Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası”nın 2.11-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hər il 15 iyun tarixinədək növbəti il üçün orijinal, superelit, elit, 1-ci və 2-ci reproduksiyalı toxumlar və tinglərin istehsalı kvotalarının təsdiq edilməsi barədə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının~~

~~Nazirlər Kabinetinə təklif versin;~~

[4] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 1.4-cü bənddə "**buğda toxumunu istehsal edən Aqrar Elm Mərkəzinin təsərrüfatları və dövlət kənd təsərrüfatı istehsalı müəssisələri**" sözləri "**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları**" sözləri ilə əvəz edilmişdir.

[5] 7 dekabr 2020-ci il tarixli **485** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 9 dekabr 2020-ci il, № 258, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, V kitab, maddə 1589**) ilə 2-ci hissəsində və 3.1-ci bəndində "**Aqrolizinq**" sözü "**Aqroservis**" sözü ilə əvəz edilmişdir.

1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 2-ci hissədə "**Aqrar Elm Mərkəzinin tabeliyində olan təsərrüfatların, dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin və özəl buğda toxumçuluq təsərrüfatlarının**" sözləri "**toxum istehsal edən elmi müəssisə və təşkilatlarının, özəl toxumçuluq təsərrüfatlarının**" sözləri ilə, "**aqroservis xidmətlərinin**" sözləri "**aqrotexniki xidmətlərin**" sözləri ilə əvəz edilmişdir.

[6] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 3.1-ci bənddə "**servis xidmətlərinin**" sözləri "**aqrotexniki xidmətlərin**" sözləri ilə əvəz edilmişdir.

[7] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 3.2-ci bənddə "**Aqrar Elm Mərkəzinin tabeliyində olan təsərrüfatlar, dövlət kənd təsərrüfatı istehsalı müəssisələri və**" sözləri "**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları,**" sözləri ilə, "**servis xidmətlərinin**" sözləri "**aqrotexniki xidmətlərin**" sözləri ilə əvəz edilmişdir.

[8] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 3.3-cü bənddə "**Aqrar Elm Mərkəzinin təsərrüfatlarında**" sözləri "**toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında**" sözləri ilə əvəz edilmişdir və həmin bəndə "**başa çatdıqda**" sözlərindən sonra "**dövlət büdcəsinin vəsaiti hesabına**" sözləri əlavə edilmişdir.

[9] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 3.4-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.4. Aqrar Elm Mərkəzinin təsərrüfatlarında büdcə vəsaiti hesabına istehsal edilmiş elit toxumlar onun istehsalına çəkilən xərclərin 50 faizi ödənilməklə, toxumçuluq təsərrüfatlarına verilir və əldə edilmiş vəsait təsərrüfatın maddi-texniki bazasının gücləndirilməsinə yönəldilir.~~

[10] 1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557**) ilə 3.5-ci bənddə "**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi**" sözləri "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[11] 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, № 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, №02, maddə 201**) ilə 5-ci hissəsində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №2, maddə 227**) ilə 5-ci hissəsində "**Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasının və Dövlət Toxumçuluq Müfəttişliyinin**" sözləri "**Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin**" sözləri ilə əvəz edilmişdir.

13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955**) ilə 5-ci hissəsindən "**və Sənaye**" sözləri çıxarılmışdır.

25 dekabr 2019-cu il tarixli **496** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 27 dekabr 2019-cu il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 2077**) ilə 5-ci hissəsində "**Nazirliyin tabeliyində olan Aqrar Elm Mərkəzinin, Bitki Sortlarının Qeydiyyatı və**

**Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin yerli təşkilatlarında, habelə dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində"** sözləri "**Nazirliyin yanında olan Aqrar Xidmətlər Agentliyində, tabeliyində olan Aqrar Elm və İnnovasiya Mərkəzində, habelə dövlət müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

7 may 2021-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 9 may 2021-ci il, № 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 5, maddə 512)** ilə 5-ci hissədən "**Elm və**" sözləri çıxarılmışdır.

1 noyabr 2023-cü il tarixli **393** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 noyabr 2023-cü il, "Xalq" qəzeti, 4 noyabr 2023-cü il, № 242, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 11, maddə 1557)** ilə 5-ci hissədə "**Nazirliyin yanında olan**" sözləri "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında**" sözləri ilə, "**, tabeliyində olan Aqrar İnnovasiya Mərkəzində, habelə dövlət müəssisələrində**" sözləri "**və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatlarında**" sözləri ilə əvəz edilmişdir.